# QMİ sədri G20 Dinlərarası Forum çərçivəsində bir sıra görüşlər keçirib

İtaliyanın G20-yə sədrliyi çərçivəsində Bolonya şəhərində işə başlayan "G20 VIII Dinlərarası Forum"da iştirak edən Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Şeyxülislam Allahşükür Paşazadə BMT Sivilizasiyalar Alyansının Ali nümayəndəsi Migel Anhel Moratinosla görüşüb.

Görüşdə QMİ sədri Migel Anhel Moratinosa Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını çatdırıb. Şeyxülislam qeyd edib ki, Migel Anhel Moratinos Azərbaycanda həm dövlət, həm də xalq tərəfindən böyük hörmətə sahibdir.

Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə müsəlman və xristian məbədlərinin təmir və bərpasını həyata keçirdiyini deyən QMİ sədri həmin ərazilərdə infrastrukturun bərpası və yenidən qurulması işlərinin də uğurla davam etdiyini bildirib.

Migel Anhel Moratinos öz növbəsində Şeyxülislam Allahşükür Paşazadədən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə salamlarını və dərin ehtiramını çatdırmağı xahiş edib.

Cari ilin iyun ayında Azərbaycana səfərini xatırladan BMT Sivilizasiyalar Alyansının Ali nümayəndəsi işğaldan azad olunmuş ərazilərə ziyarətini və orada gördüklərindən çox təsirləndiyini vurğulayıb.

O, Azərbaycanın həmin ərazilərdə həyata keçirdiyi təmir-bərpa işlərini tez bir zamanda uğurla başa çatdıracağına ümidvar olduğunu deyib.

Şeyxülislam Migel Anhel Moratinosla həm 44 günlük Vətən müharibəsindən əvvəl, həm müharibə zamanı, həm də Azərbaycanın Qələbəsi ilə yekunlaşan müharibədən sonra dəfələrlə onlayn görüşlər keçirdiyini xatırladıb. Bildirib ki, bu görüşlərdə BMT Sivilizasiyalar Alyansının Ali nümayəndəsi vəziyyətdən narahatlığını və sülhə nail olmaq üçün əlindən gələni etməyə hazır olduğunu qeyd edib. QMİ sədri bunun üçün Migel Anhel Moratinosa öz təşəkkürünü bildirib.

BMT Sivilizasiyalar Alyansının Ali nümayəndəsi isə bölgədə sülhün bərqərar olmasına, tərəflər arasında anlaşma ab-havasının yaradılmasına öz töhfəsini verməyə hazır olduğunu deyib. Migel Anhel Moratinos qeyd edib ki, Azərbaycanın və Ermənistanın dini liderlərinin görüşü sülhün bərqərar olunmasına öz töhfəsini verə bilər. BMT Sivilizasiyalar Alyansının Ali nümayəndəsi bununla bağlı öz dəstəyini göstərməyə hazır olduğunu və səylərini əsirgəməyəcəyini vurğulayıb.

Görüşdə Azərbaycanın mədəniyyət naziri Anar Kərimov və Dağ yəhudiləri dini icmasının sədri Melih Yevdayev iştirak ediblər.

❖ ❖ ❖

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Şeyxülislam Allahşükür Paşazadə Bolonya şəhərində keçirilən "G20 VIII Dinlərarası Forum" çərçivəsində İnsan Qardaşlığı Ali Komitəsinin Baş katibi, Əl-Əzhərin Şeyxi Əhməd Əl-Tayyibin şəxsi nümayəndəsi Məhəmməd Əbdül Salam ilə görüşüb.

Görüşdə QMİ sədri Azərbaycanın 30 il ərzində Ermənistan əsarətində olan torpaqlarını işğaldan azad etdiyini deyib, ermənilərin həmin ərazilərdəki vandalizm aktlarından danışıb, düşmən tərəfindən 67 məsciddən 64-nün tamamilə məhv edildiyini, məzarların dağıdıldığını vurğulayıb.

Şeyxülislam Azərbaycanın azad etdiyi ərazilərdə hazırda dini-mədəni abidələrin bərpasını həyata keçirdiyini, bütövlükdə bu ərazilərdə geniş quruculuq və yenidənqurma işlərinin aparıldığını bildirib.

QMİ sədri 44 günlük Vətən müharibəsi dövründə Əl-Əzhərin Şeyxi Əhməd Əl-Tayyibin ölkəmizə dəstəyini xüsusilə vurğulayıb.

Şeyxülislam Əl-Əzhərin Şeyxi Əhməd Əl-Tayyibi Azərbaycana dəvət etdiyini və bu dəvətini bir daha yenilədiyini deyib.

İnsan Qardaşlığı Ali Komitəsinin Baş katibi QMİ sədrindən Əl-Əzhərin Şeyxi Əhməd Əl-Tayyibin salamlarını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə çatdırmağı xahiş edib. O, Qafqaz Müsəlmanları İdarəsi ilə səmərəli əməkdaşlıqlarından məmnunluğunu bildirib. Məhəmməd Əbdül Salam Şeyxülislamı Misirə səfərə dəvət edib.

Baş katib Azərbaycana səfərini və şeyxülislamla bir daha görüşünü səbirsizliklə gözlədiyini deyib.

Görüşdə Qafqaz Müsəlmanları İdarəsi ilə İnsan Qardaşlığı Ali Komitəsi arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

İtaliyanın G20-yə sədrliyi çərçivəsində Bolonya şəhərində keçirilən "G20 VIII Dinlərarası Forum"da iştirak edən Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Şeyxülislam Allahşükür Paşazadə ABŞ-ın Yuta ştatında yerləşən İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin (Mormon kilsəsi) 12 Həvarinin Kvorumunun üzvü Ronald Raşband və onu müşayiət edən nümayəndə heyəti ilə görüşüb.

Tərəflər arasında əlaqələrin inkişafının müzakirə olunduğu görüşdə QMİ sədri Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasının önəmini vurğulayaraq, bu istiqamətdə Mormon kilsəsini dəstək verməyə çağırıb.

Şeyxülislam A.Paşazadə Azərbaycanın 30 il ərzində erməni işğalında qalmış torpaqlarını Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və xalqımızın yenilməz iradəsi ilə azad etdiyini, Ermənistanın həmin ərazilərdə misli görülməyən vəhşilik və vandalizm aktları törətdiyini bildirib. Ermənistanın, xüsusilə erməni kilsəsinin münaqişəni həmişə dini zəminə çəkməyə çalışdığını, bununla da xristian dünyasının dəstəyini əldə etmək istədiyini bildirən şeyxülislam dünya ictimaiyyətinin bu əsassız cəhdlərə inanmadığını, münaqişənin dini zəmində olmadığının şahidinə çevrildiyini vurğulayıb.

Azərbaycanın tolerant və multikultural dəyərlərə sadiq ölkə olduğunu qeyd edən QMİ sədri Prezident İlham Əliyevin erməni işğalçılarının vandalizminə məruz qalan, mənsubiyyətindən asılı olmayaraq, bütün məbədlərin təmir və bərpa ediləcəyinə dair verdiyi bəyanatların buna ən parlaq sübut olduğunu vurğulayıb. Şeyxülislam Allahşükür Paşazadə azad olunmuş torpaqlardakı erməni vandalizminin izlərinin və Azərbaycan tərəfindən aparılan bərpa işlərinin şəxsən şahidi olmaq üçün R.Raşbandı ölkəmizə səfərə dəvət edib.

Birləşmiş Ştatların nümayəndə heyətinin üzvləri öz növbələrində Azərbaycan həqiqətləri barədə məlumatlı olduqlarını, ölkəmizin dünyadakı mövqeyini dəstəklədiklərini bildiriblər.

Görüşdə qarşılıqlı tərəfdaşlığın daha da genişləndirilməsi üçün bu cür dialoq platformalarının əhəmiyyəti vurğulanıb, əməkdaşlığın perspektivləri müzakirə olunub.

Görüşdə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) icraçı direktoru Rəvan Həsənov və Dağ yəhudiləri dini icmasının sədri Melix Yevdayev iştirak ediblər.

❖ ❖ ❖

İtaliyanın Bolonya şəhərində keçirilən "G20 VIII Dinlərarası Forum"da iştirak edən Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Şeyxülislam Allahşükür Paşazadə İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatının (ICESCO) baş direktoru Salim bin Məhəmməd əl-Maliklə görüşüb.

Görüşdə şeyxülislam Azərbaycanın haqq işində və torpaqlarının azadlığı uğrunda apardığı 44 günlük Vətən müharibəsi dövründə göstərdiyi mənəvi dəstəyə görə ICESCO-nun baş direktoruna təşəkkür edib. QMİ sədri azad edilən ərazilərdə hazırda aparılan bərpa işləri barədə məlumat verib.

ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik yanvar ayında ölkəmizə səfərini, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşünü məmnunluqla xatırlayıb. İşğaldan azad olunan ərazilərə, dağıdılan və yerləyeksan edilən şəhərlərə səfər etdiyini, orada gördüklərinin qeyri-insani əməl və bəşəriyyət əleyhinə cinayət olduğunu bildirib. ICESCO-nun baş direktoru Azərbaycan hökumətinin azad edilən əraziləri tez bir zamanda yenidən quracağına əminliyini bildirib.

Görüşdə Qafqaz Müsəlmanları İdarəsi ilə ICESCO-nun əlaqələrinin mövcud vəziyyəti və tərəfdaşlığın perspektivləri müzakirə edilib.

❖ ❖ ❖

İtaliyanın Bolonya şəhərində keçirilən "G20 VIII Dinlərarası Forum" çərçivəsində tədbirin tərəfdaşlarından olan KAICIID Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin Baş katibi Feysəl bin Muammar tərəfindən görüş təşkil olunub.

Görüşdə əsas qonaq qismində Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Şeyxülislam Allahşükür Paşazadə və Konstantinopol Patriarxı I Varfolomey iştirak ediblər.

Şeyxülislam Azərbaycandakı hazırkı vəziyyət barədə görüş iştirakçılarını məlumatlandırıb. QMİ sədri eyni zamanda dinlərarası dialoqun genişləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Görüşdə həmçinin nüfuzlu beynəlxalq təşkilatların və dini qurumların liderləri, o cümlədən İraq Dinlərarası Dialoq Şurasının (ICID) həmtəsisçisi Seyid Cavad Məhəmməd Təqi əl-Xoyi və başqaları iştirak ediblər.

***AZƏRTAC***

Azərbaycan.- 2021.- 15 sentyabr.- S.3.